# Şəhidlər ölməz, Vətən bölünməz

***Şəhidlik zirvədir, qeyrət rəmzidir, şəhid gələcəyin vuran nəbzidir. Şəhid xalqımızın bir and yeridir...***

İnsan həyata bir dəfə gəlir və hər kəs də Tanrı tərəfindən ona bəxş olunan ömrü müxtəlif cür yaşayır. Yalnız mərd, xalqını və vətənini böyük məhəbbətlə sevən qartal timsallı insanlar yüksələ bilirlər ən uca zirvəyə. Belə ömür isə şərəflidir, əbədidir. Həyatda şücaətlər göstərən, vətən naminə çarpışan qəhrəmanların adları xatirələrdə yaşayır, onların şərəfinə abidələr ucaldılır, əməlləri barədə şeirlər yazılır, mahnılar, dastanlar qoşulur.

Azərbaycan xalqı həmişə mülayim, sülhsevər olmuşdur. O, heç kəsin torpağına göz dikməmiş, kiməsə ziyan vurmağı özünə rəva görməmişdir. Xalqımız həmişə öz yurdunu, torpağını qorumuş, lazım gələndə canını bu yolda qurban verməkdən belə çəkinməmişdir. Xalqımızın ta qədimdən azadlığımız uğrunda mübarizə aparan qəhrəmanları çox olmuşdur. Tarix göstərdi ki, onların qəhrəmanlıq yolunu davam etdirən igidlərimiz indi də saysız-hesabsızdır.

44 günlük Vətən müharibəsində neçə-neçə qəhrəman əsgər və zabitlərimiz öz canından keçərək şəhidlik zirvəsinə ucalmışdır. Onlardan biri də Şirinov Taleh Qadir oğludur.

Şirinov Taleh 1996-cı il noyabrın 21-də Qəbələ rayonunun Çuxur Qəbələ kəndində sadə və zəhmətkeş bir ailədə dünyaya göz açmışdır. O, oxuduğu müddətdə öz davranışı, vətənpərvərliyi ilə digər şagirdlərdən fərqlənirdi.

Taleh orta təhsilini başa vurub 2015-ci ilin yanvarında hərbi xidmətə yollandı. Sonra isə dörd günlük aprel döyüşlərində iştirak etdi. Xidmət etdiyi dövrdə o, fəxri fərmanlar, tərifnamələr, təşəkkürnamələrlə təltif olundu.

Hərbi xidmətini başa vurub doğma kəndinə qayıtdı. Atası Qadir bəy neçə illər əvvəl dünyasını dəyişmişdi. Taleh onda on altı yaşında idi. Ailənin bütün çətinliyi anası Brilyant xanımın üzərinə düşmüşdü. O, övladlarına qayğı göstərir, onları vətənpərvər ruhda tərbiyə edir, ev-eşik, ailə sahibi olmasına çalışırdı. Taleh də işlədi, anasına kömək oldu və ailə qurdu. Ailə qurdu ki, anası boyuna baxıb fəxr etsin, bütün dərdlərini unutsun.

Bu o vaxtlar idi ki, amansız düşmən torpaqlarımızda “at oynadır”, sərvətlərimizi talayır, torpaqlarımızı viran qoyur, dinc sakinləri atəşə tuturdular. Vətənə kömək lazım idi.

2020-ci il sentyabrın 21-də onu Hərbi Komissarlığa çağırdılar. Oradan da hərbi təlimlərə yolladılar. 7 oktyabrda Tərtər rayonunda Suqovuşan istiqamətində gedən döyüşlərdə iştirak edən Taleh öz döyüş yoldaşları ilə pusquya düşərək düşmən hücumuna məruz qaldı. Bu döyüşdə aldığı çoxsaylı qəlpə yaraları ilə şəhidlik zirvəsinə ucaldı.

8 oktyabrda bütün kənd, rayonun mötəbər vəzifə sahibləri, ətraf rayonlardan, kəndlərdən gələn qonaqlar şəhidlə vidalaşmaq, ona sonsuz ehtiramını bildirmək üçün şəhidin evinə axın edirdilər. O, əzizlərinin uyuduğu kənd qəbiristanlığında dəfn olundu. Taleh şəhid olanda oğlu Mərd 3 aylıq idi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə Taleh Şirinov göstərdiyi şücaətlərə görə “Rəşadət” ordeni, “Vətən uğrunda” medalı ilə təltif olunub.

Vətən müharibəsinin başladığı gündən artıq 1 il ötür. Həmişə olduğu kimi, indi də ölkəmizin hər yerində şəhidlər anılır, şəhid bulaqları inşa olunur, barelyeflər, büstlər hazırlanır, şəhidlərin xatirəsi yad olunur.

Oktyabrın 8-də Çuxur Qəbələ kəndində bir canlanma var idi. Bu gün həm kədərli, həm də qürurverici bir gün idi. Bu gün Vətən müharibəsi şəhidi Taleh Şirinovun anım günü idi. Həmin gün kəndin mərkəzində “Şəhidlər bulağı”nın açılışı oldu. Burada general Polad Həşimovun və kəndimizin üç şəhid oğlunun şəkilləri diqqət çəkirdi. Bu bulaq şəhid Dağlar Yusifovun qardaşı Yasin qardaşımızın şəxsi vəsaiti ilə inşa olunub. Bulağın inşasında əməyi olan hər kəsə təşəkkür edirik.

Bulağın açılışında Qəbələ rayon İcra Hakimiyyətinin nümayəndələri, şəhidin ailəsi və qohumları, kənd sakinləri, Çuxur Qəbələ məktəbinin müəllim və şagird kollektivi iştirak edirdi. Əvvəlcə bulağa gül dəstələri düzüldü, himnimiz səsləndi, şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Başını dik tut, şəhid anası! Sizin oğlunuz həmişəyaşardır. Ailənizə səbr, təmkin, iradə və dözümlülük arzulayırıq. İndi Taleh tək sizin ailənin deyil, bütün Azərbaycanın fəxridir. Belə qəhrəmanlar heç vaxt ölmürlər. Onlar qədirbilən xalqımızın qəlbində əbədi yaşayırlar, gələcək nəsillərə əbədi örnək kimi yaşayacaq, xatırlanacaq. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Torpaqlarımıza bir daha şəhid qanı tökülməsin! Biz sizinlə fəxr edirik, vətənin mərd oğulları! Ruhunuz qarşısında baş əyirik. Şəhidlər ölməz, Vətən bölünməz!

**Arifə CABBAROVA,**
**Çuxur Qəbələ kənd orta məktəbinin müəllimi.**

# Aqşin Ənvərliyə həsr olunmuş “Ömrün şəhidlik zirvəsi” adlı tədbir keçirilmişdir




Qəbələ Rayon Mədəniyyət Mərkəzində rəsm qalereyası şöbəsinin hazırladığı Vətən Müharibəsi şəhidi, vaxtı ilə Xüsusi Təyinatlı Qüvvələrin Tibb Xidmətinin rəisi olmuş baş leytenant Aqşin Ənvərlinin xatirəsinə həsr olunmuş, “Ömrün şəhidlik zirvəsi” adlı tədbir keçirilmişdir. Tədbirdə Qəbələ rayon İcra Hakimiyyətinin, Mədəniyyət mərkəzinin əməkdaşları, şəhidin təhsil aldığı məktəbin kollektivi, valideynləri və ictimaiyyət nümayəndələri iştirak etmişdir. Çıxış edənlər həkim şəhidin həyatı, fəaliyyəti və döyüş yolu haqqında geniş məlumat vermiş, məktəblilərin ifasında qəhrəman şəhidlərimizə həsr olunmuş şeirlərdən ibarət ədəbi-bədii kompozisiya səsləndirilmiş və videoçarx nümayiş olunmuşdur. Sonda Aqşin Ənvərlinin hələ məktəbli ikən çəkdiyi rəsm əsərlərinin, eyni zamanda Qəbələ rayonundan olan Vətən Müharibəsi şəhidlərinin fotolarının nümayiş olunduğu sərgiyə baxış keçirilmişdir.

# Ziyarət edildi

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi, Azərbaycan Respublikası Ali Məhkəməsi, Bakı Apellyasiya Məhkəməsi, Qəbələ Rayon Məhkəməsi, Qəbələ Rayon Uşaq- Gənclər İdman-Şahmat məktəbinin nümayəndələri 28.10.21-ci il tarixində şəhid İqbal Zəki oğlu Babayevin Vətən müharibəsində şəhid olmasının il dönümündə iştirak etmiş, şəhidin məzarı üstünə gül və əkililər qoymuş, şəhidin ruhuna dualar oxumuşlar.



Sonra iştirakçılar Vətən müharibəsi şəhidi Ağaşirin Firuz oğlu Babayevin də məzarını ziyarət etmiş, mərhumun ruhuna dualar oxumuşlar.

**Nərmin RİZVANOVA,**
**Qəbələ Rayon Uşaq-Gənclər İdman Şahmat məktəbinin direktor müavini.**

# 88 yaşlı “Qəbələ”

***“Qəzet aləmin güzgüsüdür. Qəzet zəmanənin ən keskin qılıncıdır. Qəzet cismi-həyatın ruhudur. Qəzet aləmin ən nüfuzlu, təsirli vaizidir”.***

**Məhəmməd ağa Şahtaxtlı.**

Bu gün onlayn media ənənəvi medianı sıxışdırır. “Qəzetlər bu vəziyyətdən necə çıxa bilərlər?” sualına cavab olaraq onu qeyd edə bilərik ki, çevik informasiya almaq baxımından internet media nə qədər müasir olsa da, qəzetçiliyin min illərlə ölçülən qədim tarixi var. Çünki qəzetin öz oxucuları var. Qəzetçilik klassikadır. Bu, min illərin yazılı ənənəsidir və heç vaxt sıradan çıxa bilməz. Bunları bir-birinə qarşı qoymaq informasiya məkanında naşılıqdır. Hazırda respublikada çoxlu sayda müxtəlif qəzet və jurnallar nəşr olunur, internet qəzetçilik inkişaf edir.

Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiya kollektivinin təsisçiliyi ilə nəşr olunan "Qəbələ"-qəzeti 15 oktyabr 1933-cü ildə "Bolşevik mübarizi" adı ilə işıq üzü görmüşdür. Sonralar "Mübariz", "Yeni həyat", "Qalibiyyət", "Qəbələ" adları ilə çap olunmuşdur.

Qəzet redaksiyasında çalışan redaktorlar: Nəriman Həsənov, Musa Nəcəfov, Umud Kərimov, Baba Qəhrəmanov, Canan Şirinov, Kərim Abdullayev, Ramazan İsmayılov, Əziz Əzizov, Tacəddin Şahdağlı, Nadir Atakişiyev, Oqtay Məmmədov, Varis Yaqubov. Onu da qeyd edək ki, qəzetimizin ilk redaktoru 1937-ci ilin mayınadək işləyən Nəriman Həsənov may ayında rayonun partiya komitəsinin birinci katibi işləmiş Kazım Vəliyevlə birlikdə dəhşətli repressiyanın qurbanı olub. Bu dövrdə qəzetimiz dəfələrlə Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin və Respublika Jurnalistlər Birliyinin Fəxri fərman və diplomlarına layiq görülüb. 2020-ci ildən bu günədək qəzetimizin redaktoru, bacarıqlı, ziyalı Azad Məmmədovdur.



“Qəbələ” qəzeti xalqın, millətin keçmişini, ictimai-siyasi, iqtisadi yaşantılarını, istək və arzularını aybaay öz oxucularına çatdırmağa nail olmuşdur və bu ənənəsini bu gün də davam etdirir. Eyni zamanda qəzetimizdə vətənpərvərlik mövzusuna da xüsusi yer ayrılır. Artıq 88 ildir ki, fəaliyyət göstərən "Qəbələ" əhatəli oxucu auditoriyasına malikdir. Hazırda “Qəbələ” qəzetinin redaksiyasında kiçik bir kollektiv qəzetin ərsəyə gəlməsi üçün çalışır. Kollektivimizin bəzi işçiləri var ki, sözün əsl mənasında onlar saçlarını bu qəzetdə ağardıblar. Necə deyərlər, “Onlar-məsul katib və jurnalist-Bibixanım İsayeva, dizayner-Rais Rəşidov, mühasib və fotoqraf-Səhrab Umuyev qəzetimizin əməkdar və qocaman işçiləridir”. Bizlər isə onlardan örnək götürür, qəzetçilik sahəsində bilmədiklərimizi öyrənir, bildiklərimizi isə daha da təkmilləşdiririk.

Onlayn media yarandığı gündən qəzetə tələbat az olsa da, “Qəbələ” qəzeti ayaqda durmağa çalışır. Düşünürəm ki, buna nail oluruq.

Yaşımız çox gənc olsa da, bəzən bizdən yaşlı nəsli dinlədikdə və yaxud gənc nəsildən daha çox təcrübəsi olan jurnalistlərdən bu sözləri eşidirik: “Keçmişdə mətbuata daha çox həvəs var idi”. Xüsusilə də gənclərimiz “İndi qəzet oxuyanmı var?”, “Hansı dövrdə qalmışıq” kimi ifadələrlə qəzet oxumaqdan yayınırlar. Bu da səbəbsiz deyil. Müasir dövrün tələbləri ilə uyğunlaşmağa çalışan gənclərimiz artıq baş verənləri qəzetlərdən deyil, smartfonlar vasitəsilə saytlardan əldə etməyə çalışırlar. Lakin biz unutmamalıyıq ki, qəzet bir tarixdir. “Əkinçi” qəzeti ilə başlayan bir yolu “Qəbələ” qəzeti də onun ideya xətti ilə özünəməxsus şəkildə davam etdirir. Biz onu hər zaman yaşatmalıyıq. Qəzetçilik birtəkərli velosiped sürmək kimi bir şeydir, dayandınsa, aşacaq. Yıxılmamaq üçün hər zaman hərəkət etmək lazımdır. Biz də daim hərəkətdəyik. Necə deyərlər, “ƏL İŞDƏN SOYUMAZ, ÜRƏK ARZUDAN...”

**İlahə RƏHİMOVA,**
**“Qəbələ”**